# Azərbaycan - İndoneziya münasibətləri

**Qısa tarixi məlumat:**

İndoneziya Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini 28 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 24 sentyabr 1992-ci ildə qurulmuşdur. 17 fevral 2004-cü ildə İndoneziyanın Azərbaycandakı səfiri (iqamətgahı Türkiyədə olmaqla) Amin Rianom öz etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təqdim etmişdir. 1 fevral 2006-cı il tarixində Azərbaycan Respublikasının İndoneziya Respublikasındakı Səfirliyi fəaliyyətə başlamışdır. 2 dekabr 2010-cu il tarixində İndoneziya Respublikasının Azərbaycan Respublikasında Səfirliyi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının İndoneziyadakı səfiri Tamerlan Qarayev etimadnaməsini 28 oktyabr 2011-ci il tarixində İndoneziya Prezidentinə təqdim etmişdir. İndoneziya Respublikasının Azərbaycan Respublikasında səfiri Raden Prayono Atiyanto etimadnaməsini 7 fevral 2012-cı il tarixində Azərbaycan Prezidentinə təqdim etmişdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

Mövcud deyil.

**Parlament sədrləri:**

**20-23 aprel 2010-cu il** tarixində İndoneziya Respublikası Nümayəndələr Palatasının sədr müavini Pramono Anunq Vibovonun başçılıq etdiyi İndoneziya Parlamentinin nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etmişdir.

**8-11 noyabr 2012-ci il** tarixində Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədov İndoneziyada rəsmi səfərdə olmuşdur.

**19-21 dekabr 2012-ci il** tarixində İndoneziya Respublikasının Regional Nümayəndələr Palatasının sədri cənab İrman Qusman ilə Azərbaycan Respublikasına səfər etmişdir.

**14-17 aprel 2013-cü il** tarixində İndoneziya Parlamentinin Nümayəndələr Palatasının Sədri Marzuki Əli Azərbaycana səfər etmişdir.

**Xarici işlər nazirləri:**

**9-13 dekabr 1996-cı il** tarixində İKT (İƏT) xarici işlər nazirlərinin İndoneziya Respublikasının paytaxtı Cakarta şəhərində keçirilmiş 24-cü konfransında Azərbaycan Respublikasının xarici işlər naziri iştirak etmişdir.

**19-21 iyun 2006-cı il** tarixində Bakı şəhərində keçirilən İKT (İƏT) XİN başçılarının 33-cü konfransında iştirak etmək üçün İndoneziyanın xarici işlər naziri Həsən Virayuda Azərbaycan Respublikasında səfərdə olmuşdur.

**11-12 may 2008-ci il** tarixində İndoneziya Respublikasının Xarici İşlər Naziri cənab Həsən Virayuda Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

**24-28 may 2011-ci il** tarixindəAR Xarici İşlər Naziri Elmar Məmmədyarov İndoneziyaya səfər etmişdir.
**7-8 noyabr 2013-cü** ildə AR Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov İndoneziyanın Bali adasında VI Bali Demokratiya Forumunda iştirak etmişdir. Forum zamanı keçirilən debatlarda E.Məmmədyarov çıxış etmişdir.

**Digər səfərlər:**

**21-24 noyabr 2007-ci il** tarixində Ədliyyə Naziri Fikrət Məmmədovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Balidə keçirilmiş Korrupsiyaya Qarşı Mübarizə Qurumlarının Beynəlxalq Assosiasiyasının 2-ci illik iclası və ümumi toplantısında iştirak etmişdir.

**2-5 may 2009-cu il** tarixində Balidə keçirilən Asiya İnkişaf Bankının Direktorlar Şurasının 42-ci illik iclasında Azərbaycan Respublikasının Maliyyə Naziri Samit Şərifovun başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.

**18-21 oktyabr 2011-ci il** tarixində İndoneziya Konstitusiya Məhkəməsinin Baş hakimi Məhəmməd Mahfud ölkəmizdə səfərdə olmuşdur.

**7-8 sentyabr 2012-ci il** tarixindəİndoneziyanın İqtisadi Məsələlər üzrə Əlaqəndirici Naziri Hatta Racasa Azərbaycana səfər etmişdir.

**7-10 noyabr 2012-ci il** tarixində Cakartada keçirilmiş "INDODEFENCE 2012"sərgisində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Naziri cənab Yavər Camalovun rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir.

**4-6 dekabr 2012-ci il** tarixində Cakartada keçirilən İslam Əməkdaşlıq Təşkilatının "İnkişafda Qadınların Rolu" mövzusunda 4-cü Nazirlər Konfransında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sədri Hicran Hüseynovanın başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.

**14-16 yanvar 2013-cü il** tarixində İndoneziya Respublikası Müdafiə Nazirliyinin Başkatibi, marşal Eris Herriyantonun Azərbaycan Respublikasına səfər etmişdir.

**17-22 fevral 2013-cü il** tarixində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayevin başçılıq etdiyi, Məhkəmənin hakimi Ceyhun Qaraçayev və Baş Katibi Rauf Quliyevdən ibarət olan nümayəndə heyəti İndoneziyaya səfər etmişdir.

**18-19 mart 2013-cü** ildə İndoneziyanın Terrorizmlə Mübarizə Milli Agentliyinin rəhbər müavini cənab Harri Purvantonu Bakıda keçirilən "Terrorizmin qarşısının alınması üçün Əməkdaşlığın Gücləndirilməsi" üzrə Beynəlxalq Konfransında iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olmuşdur.

**15-18 aprel 2013-cü ildə** İndoneziya Respublikasının Nümayəndələr Palatasının sədri cənab M.Alienin başçılığı ilə nümayəndə heyəti Azərbaycana səfər etmişlər. Səfər zamanı nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Baş Naziri Artur Rasi-zadə və Milli Məclisinin sədri Oqtay Əsədov tərəfindən qəbul olunmuşdur.

**21-26 may 2013-cü ildə** keçirilən Dünya Bankı və Beynəlxalq Valyuta Fondu üzrə Parlament şəbəkəsinin 11-ci illik Konfransında iştirak etmək məqsədilə İndoneziya Respublikasının Parlamentinin nümayəndə heyəti Bakıda səfərdə olmuşdur.

**9 oktyabr 2013-cü ildə** Azərbaycanda keçirilmiş Prezident seçkilərində İndoneziyanın müşahidəçi qrupu iştirak etmişdir. Qrupun üzvü, İndoneziya Milli İdman Komitəsinin Beynəlxalq Əməkdaşlıq və Hüquqi Məsələləri üzrə İcraçı Vitse-prezidenti, səfir İmmanuel Robert İnkirivanq 11 oktyabr tarixində Azərbaycan Respublikasının İdman və Gənclər Naziri Azad Rəhimovla görüşmüşdür.

**17-21 noyabr 2013-cü ildə** tarixlərində İndoneziya Parlamentinin İndoneziya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşlar.

**Parlamentlərarası əlaqələr:**

*Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:*
Bəxtiyar Əliyev - Qrupun rəhbəri

*İndoneziya-Azərbaycan əməkdaşlıq üzrə işçi qrupu:*
Nabiel Fuad Al Musavva - Qrupun rəhbəri

**24-25 yanvar 2012-ci il** tarixində Millət Vəkili Gövhər Bəxşəliyevanın başçılıq etdiyi AR-in Milli Məclisinin işçi qrupu Palembanq şəhərində keçirilmiş İKT parlamentlərarası iclasında iştirak etmişdir.

**9-12 dekabr 2012-ci il** tarixindəAzərbaycan Respublikasının Milli Məclisinin deputatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının vitse-prezidenti Asəf Hacıyev İndoneziyanın Bali şəhərində Beynəlxalq Ekoloji Təhlükəsizlik Təşkilatı tərəfindən təşkil olunmuş İkinci Ümumdünya Ekoloji Təhlükəsizlik Assambleyasında iştirak etmişdir.

**İqtisadi sahədə əməkdaşlıq:**

**Ticarət dövriyyəsi:**

**2013-cü il üzrə.** *Million ABŞ dolları*
İxrac: 28.78
İdxal: 2771.82
Saldo: 2800.60

**Humanitar sahədə əməkdaşlıq:**

**21 dekabr 2011-ci il** tarixində Bakıda keçirilmiş "Modernləşmə strategiyası: qlobal siyasətin və iqtisadiyyatın müasir çağırışları" adlı beynəlxalq konfransda İndoneziyada iqtidarda olan Demokratik Partiyanın üzvü, İndoneziya Parlamentinin Nümayəndələr Palatasının deputatı, İndoneziya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədr müavini Nabiel Fuad Almusava (Nabiel Fuad Almusawa) iştirak etmişdir.

**22-23 iyun 2012-ci il** tarixində "Golkar" Partiyasının sədr müavini Teo Sambuaqa "Yeni Azərbaycan" Partiyası tərəfindən təşkil olunmuş Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının Daimi Komitəsinin 17-ci görüşündə iştirak etmişdir.

**26-29 sentyabr 2012-ci il** tarixində Bakıda keçirilmiş Ümumdünya Diplomatik Akademiya rektorlarının və Beynəlxalq Münasibətlər fakültələrinin dekanlarının illik forumunda Filippin Xarici İşlər Departamentinin Xarici Xidmət İnstitutunun direktoru Ancelina M. Sta. Katalina, İndoneziya Respublikasının Xarici İşlər Nazirliyinin Təlim-Tədris Mərkəzinin rəhbəri Hazairin Pohan iştirak etmişlər.

**4-5 oktyabr 2012-ci il** tarixindəAzərbaycanda keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunda İndoneziya Respublikası Parlamentinin Nümayəndələr Palatasında Demokratik Partiya Fraksiyasının Sədri Nurhayati Ali Asseqaf, İndoneziyanın

“ANTARA” mətbuat agentliyinin sədri Əhməd Muhlis Yusuf, Doktor Həsən Virayuda, Prezidentin Məşvərət Şurasının üzvü, sabiq Xarici İşlər Naziri, Jakarta Dövlət İslam Universitetinin dekanı Effendi Bəxtiyar, Paramadina Universitetinin professoru Maarif Zaynul, Prezidentin Məşvərət Şurasının üzvü Rəşid Məhəmməd Riyas iştirak etmişlər.

**Müqavilə-hüquq bazası:**

İki ölkə arasında 4 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 13.08.2014***